"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

AZƏRİNŞAAT

PRES RELİZ

# Prezident İlham Əliyev Ələt-Astara avtomobil yolunun 22 km (km 80 – km 102) hissəsinin açılışında iştirak etdi.

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2010/04/29*

Prezident İlham Əliyev Salyan rayonuna səfəri çərçivəsində Ələt – Astara, İranla dövlət sərhədi avtomobil yolunun 22 kilometrlik hissəsinin açılışında iştirak etdi.

2006-cı ilin dekabr ayından tikintisinə başlanan Ələt-Astara avtomobil yolunun 22 km (km 80 – km 102) hissəsi artıq 2009-cu ilin aprel ayından bəri istismara verilmişdir. Beynəlxalq əhəmiyyətli layihə üzrə tikinti işlərini regionun ən böyük yol və dəmir yolu tikintisi şirkətlərindən biri olan "Azərinşaatservis" MMC həyata keçirmişdir.

Beynəlxalq əhəmiyyətli "Ələt-Astara avtomobil yolunun 22 km (km 80 – km 102) hissəsinin yenidən qurulması" layihəsinə əsasən tikilən əsas yolun uzunluğu 22 kilometr, köməkçi yolların üzünluğu 3,8 kilometr, torpaq yatağının eni isə 27,5 metrdir. I dərəcli avtomobil yolu olaraq inşa edilən bu yolun üstündə 1 körpü, 2 yol ötürücüsü, 1 mal-qara keçidi, 4 avtobus dayanacağı və 2 ədəd tərəzi də istismara verilmişdir. 4 hərəkət zolağından ibarət olan avtomobil yolunun hər bir hərəkət zolağının eni 3,75 metrdir. Ümumilikdə layihə üzrə 371 180,13 ton asfalt, 1 835 649 $m^3$ torpaq işi görülmüşdür. 44 kilometr uzunluğunda yol təhlükəsizlik səddi quraşdırılmış, ümumi uzunluğu 1508 metr olan 40 ədəd drenaj borusu çəkilmiş, 1 183 967 AZN dəyərində kommunikasiya xətlərinin köçürülməsi işləri görülmüşdür.

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin "Azəryolservis" ASC-sinin sifarişi ilə həyata keçirilən "Ələt-Astara avtomobil yolunun 22 km (km 80 – km 102) hissəsinin yenidən qurulması" layihəsi Dünya Bankı tərəfinfən maliyyələşdirilmişdir.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat üzrə Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**